Ədalət .- 2024.- 27 dekabr(№50).-S.8.

Onun barəsində danışmaq, yazmaq həm asanddır, həm də çətin. Bu fikri ona görə birbaşa bilgisayara diktə edirəm ki, yazını oxuyan hər kəs mövzuya öz baxış bucağı altından baxanda mənim məramımı dürüst anlasın.

Bilsin ki, 86 yaşlı yazıçı, publisist, ictimai xadim, həm də Dövlət Təhlükəsizlik Xidmətinin yüksək rütbəli zabiti, eləcə də əməkdar incəsənət xadimi, alim, ziyalı olan bir şəxs barəsində fikir söyləmək nə qədər çətin və həm də asandır. Bu mövzunun çətinliyi ondadır ki, saydığım və saymadığım titullar özü-özlüyündə böyük məsuliyyət yaradır. Mövzuya adamı ehtiyatla, təmkinlə yanaşmağa vadar edir.



Çünki sözün bu üzündən baxıb o biri üzün də görən bir yüksək rütbəli DTX zabitinin haqqında yazılacaq hər bir sözə peşəkarcasına, həm də ürəklə nəfəs verməlisən ki, o, qəbul olunsun, dinlənilsin.

Bax, bu mənada çətin və məsuliyyətli yazıya könül verirəm. O ki qaldı, yazının asan tərəfinə...

Bəli, mən onu çoxdan tanıyıram. Öncə yazıçı-publisist kimi tanımışam, imzası ilə, kitabları ilə təmasım olub. Sonra ”Azərbaycan” Nəşriyyatında eyni mərtəbənin sakinləri kimi qarşılaşmışıq. Məhz bu qarşılaşmada bir bölgənin, bir yurd nisgilinin acısını yaşayan həmyerlilər kimi görüşmüşük. O Cəbrayıl nisgilini, mən isə Hadrut-Tuğ acısını sinəmdə közərtmişəm. Və beləcə üzbəüz söhbətlər, masa ətrafındakı fikir bölüşmələri və bir də ki, yenə qələm,söz, kitab. Bizi o qədər bir-birimizə yaxınlaşdırıb ki, hətta dərdlərimizi də bir-birimizlə paylaşmışıq və

# BİR ÖMÜRDƏN FRAQMENT...

Onun barəsində əvvələr də yazı yazmışam. Keçdiyi həyat yoluna - Cəbrayılın Kavdar kəndindən başlayan ömürlüyünə də bələdəm.

Söhbətlərimizdə, sonra da kitablarında nələrdən keçdiyini, nələrlə qarşılaşdıqları barədə eşitdiyim və oxuduqlarım həmişə məndə belə bir təəssürat yaradıb ki, həqiqətən əqidəm, inadkarlıq, dözüm, səbir və bir də zəhmət insanı dardan çıxardır. İnsanı mənzil başına apara bilir.

Uç gün öncə onun doğum günü ilə bağlı arzularımı yazıya çevirmək istəyim əlimdən tutub onunla bağlı bilgilərimin qapısına gətirdi...

Xatırladım ki, çox da uzaq olmayan tarixdə onunla bağlı , yəni 85 yaşı ilə əlaqədar maraqlı bir kitab oxumuşam. İndiki anda ürəyimdən keçənlərin, yəni yazmaq istədiklərimin çoxu bu kitab da öz əksini tapıb. Kitab Yasif Mirzə oğlu Nəsirlinin həyat və fəaliyyətinə həsr olunub.. Kitabın redaktoru, əməkdar elm xadimi, professor Qəzənfər Kazımov, müəllifi isə yazıçı-publisist Mirzə Talıb oğludur.

”Mən insanlar tanıyıram ki ” adlanan kitab da göstərilir ki, zaman gələcək ki, Cəbrayıl rayonunun Kavdar kəndində 1938-ci il dekabr ayının 23-də doğulan Yasif öz nəslinin, öz el-obasının, Azərbaycanının dizi bərk, sözü qəti, nüfuzlu ziyalısı olacaqdır.Elə buradaca xüsusi vurğulamalıyam ki, bu kitabı da sözün həqiqi mənasında, məni heyrətləndirən, hətta özümün lap ilk tanışlığımızdan bildiyim bir çox məqamlarlara çox təəccüblə baxıram.

Ona görə ki, Yasif Nəsirlinin doğulduğu kənddən universitetə daxil olmağa gəldiyi günə qədər yaşadıqları, çəkdiyi əzab-əziyyət bütün ölkənin yaşadıqları olsa da, amma hamı Yasif Nəsirli ola bilməyib. Deməli, dözüm, iradə, əqidə onu istəyinə qovuşdurubdu.

Bu dünyanın çərxinin necə fırlandığını qismən bilən bir Allah bəndəsi kimi,mütləq vurğulamaq istədiyim bir məqam var:- MƏSULİYYƏT!!!

Mən ,Yasif müəllimin keçdiyi həyat yolunu izlədikcə şahidi olduğum ən böyük və vacib xüsusiyyət kimi onun Məsuliyyət hissinin gücünə baş əydim!

Birmənalı olaraq başa düşdüm ki, bu İNSAN şəxsi həyatında olduöu kimi, çalışdığı sahələrdə də ona olan güvəni, etibarı həmişə birinci cərgədə tutub!!!

Bu Məsuliyyət hissi də onun başını hər zaman uca edib.Və heç kimin qarşısında əyilməyib!

Mən də onun bu özəlliyi barəsində düşünərkən ürəyimdən ona doğum günü hədiyyəsi olan kitabda yer almış və Yasif Nəsirliyə məxsus bir fikri öz-özümə pıçıldayıram:

- Adamlar var ki, etdikləri yaxşılıqları, xidmətləri heç vaxt dilə gətirmirlər. Hər şeyi Allahın ixtiyarına verirlər. Bax, Yasif Nəsirli də göstərdiyi xidmətləri, hətta ən yüksək təmaslarda olan münasibətləridə heç vaxt, heç kimə söyləməyibdir. Amma zaman və şahidlər bu xidmətləri bu gün təkcə bu kitabda yox, elə bir-biriləri ilə olan söhbətlərdə də təzələyir.

Əbülfət Mədətoğlu